# "Şuşasız bizim işimiz yarımçıq olar"

## *PREZİDENT İLHAM ƏLİYEV:* "DEMƏK OLAR Kİ, HƏR GÜN YENİ YÜKSƏKLİKLƏR, ƏRAZİLƏR İŞĞALDAN AZAD EDİLİR"

***"İrandan Ermənistana silahların göndərilməsi ilə əlaqədar bizdə hər hansısa məlumat yoxdur". Bunu Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin "Ahaber" telekanalına müsahibəsində bildirib. "Əksinə, deyə bilərəm ki, İran və Gürcüstan öz hava məkanlarını və quru yollarını Ermənistana silahların daşınması üçün bağlayıb. Buna görə biz İran və Gürcüstan hökumətlərinə təşəkkürümüzü bildirmək istəyirik. Gürcüstan ərazisindən, bizdə olan məlumata görə, bu gün mülki, eyni zamanda, karqo təyyarələri ilə qaçaq silah göndərilib. Ermənistan bu yaxınlarda bir təyyarə alıb. Bizdə olan məlumata görə, hardasa 30-40 milyon dollara alıb. Bu təyyarəni alan Rusiyada yaşayan zəngin erməni iş adamlarıdır: Karapetyan, Abramyan və başqaları. Onlar Rusiyada yaşayan erməniləri bizə qarşı vuruşmaq üçün muzdlu kimi Qarabağa göndərirlər. Eyni zamanda, bu İL-76 təyyarəsinin alınması Ermənistana imkan verdi ki, qaçaq yolla bu silahları Ermənistana ötürsün", - ölkə başçısı söyləyib.***



Ermənilərin Tərtərə dəfn mərasimini atəşə tutmasını şərh edən Prezident bildirib: "Bu, erməni faşizminin növbəti təzahürüdür. Onlar adətən döyüş meydanında məğlubiyyətə uğrayanda dinc əhaliyə atəş açırlar. Bunu biz Birinci Qarabağ müharibəsində də görmüşdük. Xocalı soyqırımını törədən həmin bizim mənfur qonşularımızdır. Bu dəfə də görəndə ki, artıq döyüş meydanında Azərbaycan Ordusunun qarşısında acizdirlər və işğal edilmiş torpaqlarda bizə müqavimət göstərə bilmirlər onlar yenə də mülki vətəndaşları hədəfə aldılar və namərd təcavüz nəticəsində bizim insanlarımız həlak oldu: həm Gəncədə, həm də dünən Tərtərdəki qəbiristanlıqda. Bu da insanların dəfn mərasimində iştrak etdiyi bir yerdir. Hər bir insan üçün müqəddəs bir yer sayılır. Ancaq bizim mənfur qonşularımız üçün müqəddəs anlayışı, görünür ki, yoxdur. Bu, insanlığa qarşı cinayətdir. Bir daha Ermənistanın yırtıcı xislətini göstərir. Bir də onu göstərir ki, bu namərd təcavüzlər bizi yolumuzdan döndərə bilməz".

Prezident qeyd edib ki, ermənilər atəşkəsdən sonra 3 dəfə Hadrud qəsəbəsini yenə də işğal etmək istədilər, 3 dəfə ora həmlə etdilər: "Amma 3 dəfə də məğlub oldular. Onların niyyəti itirilmiş və onlara mənsub olmayan torpaqları yenə də qaytarmaq və bələliklə işğalçılıq siyasətini davam etdirməkdir".

Prezident qeyd edib ki, torpaqların işğaldan azad edilməsində istiqamət hər tərəfdir: "İşğal edilmiş torpaqların hər bir qarışı bizim üçün doğmadır, əzizdir. Mənim üçün hər bir kəndin dəyəri, qiyməti o biri kəndlərlə müqayisədə eynidir, bərabərdir. Siz də yaxşı bilirsiniz ki, Şuşanın Azərbaycan xalqının qəlbində xüsusi yeri var. Bu, bizim tarixi şəhərimizdir. Qədim mədəniyyət ocağıdır. Şuşa Azərbaycan xalqına bir çox istedadlı, dahi şəxslər bəxş edib. Əlbəttə ki, Şuşasız bizim işimiz yarımçıq olar. Müzakirələr zamanında da hər zaman bu məsələ gündəlikdə idi".

Dövlət başçısı deyib: "Bizə danışıqlar prosesində təklif edirdilər ki, 5 rayon, sonra 2 rayon verilsin. Bizə deyirdilər bütün əraziləri istəməyin, belə kompromis olmur".

Dövlət başçısı onu da deyib ki, o, dünən (srağagün - red.) daha 6 kəndin işğaldan azad edilməsini elan edib. Bildirib ki, bu proses davam edir: "Demək olar ki, hər gün yeni yüksəkliklər, ərazilər işğaldan azad edilir. Füzulinin əksər kəndləri bizdədir, Füzuli artıq bizim gözümüzün önündədir. Bütün istiqamətlərdə böyük uğurlar əldə etmişik".

Prezident həmçinin deyib ki, bizim hesablamalarımıza görə, haradasa 2 milyard dollar ətrafında Ermənistan ordusuna ziyan dəyib: "Bu, davam edir. Demişəm, Ermənistan rəhbərliyinə də müraciət etmişəm - siz atəşkəsə əməl edin, bizə təqvim verin, torpaqlarımızdan çıxın bu müharibə dayansın, siz də qalan silahlarınızı qoruyun. Yoxsa belə gedərsə, onların bütün silahlarını biz məhv edəcəyik".

Dövlət başçısı bildirib ki, Ermənistan 30 il ərzində işğal edilmiş bölgələrdə bütün təmas xətti boyunca çox güclü istehkamlar qurub: "Bəzi yerlərdə onların 4 müdafiə xətti var. Çox böyük beton plitələri var, sığınacaqları, bunkerlər var. Bir də ki, o bölgənin relyefi elədir ki, o, həm də təbii istehkamdır. Çünki o dağlıq ərazidir və biz aşağıdan yuxarı gedirik. Hər bir ordu üçün bu böyük çətin və risklidir. Ona görə bu istiqamətdə bizim gördüyümüz işlər böyük qəhrəmanlıq tələb edirdi. Düşmənin texnikasını dəqiq məhv etmək üçün mütləq pilotsuz uçan aparatlarına ehtiyacımız var idi. Çox xoşbəxtik ki, qardaş Türkiyənin inkişaf etmiş hərbi sənaye kompleksi gözəl PUA və zərbə PUA-larını istehsal etməyə başlayıb. Azərbaycan ilk ölkələrdəndir ki, bu zərbə PUA-larını ala bilib. Yalnız Türkiyə istehsalı PUA-lar ilə bir milyard dollar dəyərində olan erməni silahlı texnikası məhv edilib. Müharibənin gedişatını çox dəyişdirib".

Ermənistanın mülki şəxsləri hədəf almasına Qərbin susqunluğuna münasibət bildirərkən İ.Əliyev söyləyib: "Təəssüf ki, mülki şəxslər arasında itkilərimiz davam edir. Artıq onların sayı 47 nəfər oldu, 222 mülki şəxs yaralanıb".

Dövlət başçısı deyib ki, 2000-ə yaxın ev ya tamam dağılıb, ya da böyük ziyan görüb: "Mən demişdim ki, biz bu insanların qisasını döyüş meydanında alacağıq. Biz heç vaxt mülki şəxslərə qarşı atəş açmamışıq, bu gün də açmırıq. Baxmayaraq ki, Gəncəyə, Tərtərə hücum oldu. Bu gün (dünən - red.) səhər - saat hazırda 09.10-dur - saat 06.00-dan səhər 08.00-a qədər 220-dən çox mərmi Tərtər, Ağdam, Goranboy və digər rayonlara düşüb. Yəni, bu namərd hücumlar davam edir. Onların əsas hədəfi mülki şəxsləri öldürmək, Azərbaycan əhalisi arasında panika, qorxu yaratmaq, bizi durdurmaq və öz çirkin niyyətlərinə çatmaqdır. Ancaq görürlər ki, bu, alınmır, nə qədər mərmi düşürsə düşsün, Azərbaycan vətəndaşları öz torpağında qürurla yaşayırlar və bütün bu çətinliklərə dözürlər. Onları birləşdirən bir amal var - Qarabağın qaytarılması, Azərbaycan bayrağının bütün işğal edilmiş torpaqlarda qaldırılması və ərazi bütövlüyümüzün bərpa edilməsi.

O ki qaldı toxunduğunuz ikinci məsələyə ki, nə üçün Qərbin səssiz qalır, biz bunu Birinci Qarabağ savaşında da gördük. Ermənistan bizə təcavüz etdi, torpaqlarımızı işğal etdi, Ermənistan bizim xalqımıza qarşı soyqırımı törətdi, ancaq sanksiyalar Azərbaycana tətbiq edildi. 1992-1993-cü illərdə Qərb mətbuatında belə bir təsəvvür yarandı ki, sanki Azərbaycan işğalçıdır, Azərbaycan təcavüzkardır, Ermənistan isə bu təcavüzün qurbanıdır. Bunu da bu gün az miqdarda, az həcmdə görürük, çünki həqiqəti artıq danmaq, gizlətmək mümkün deyil".

Hadrutun guya azad edilməməsi barədə erməni tərəfində aparılan təbliğatla bağlı suala cavabında İ.Əliyev deyib: "Ermənilər bu günə qədər yalan propaqanda aparırlar".

Dövlət başçısı qeyd edib ki, Hadrutda artıq neçə gündür, Azərbaycan bayrağı dalğalanır və Hadrutun ətrafında yüksəkliklərin, təpələrin mütləq əksəriyyəti bizim nəzarətimizdədir: "Hadrut götürülməsəydi, ondan sonra Xocavənd rayonunun kəndləri də götürülə bilməzdi. O zaman Füzuli kəndləri də götürülə bilməzdi. Biz yalnız Hadrut istiqamətindən ora irəlilədik".